# Sözün sözümüzün başlanğıcıdı



*Rəşid FAXRALI*

**Ehkamlara istinadən deyilən fikirlər daha yaxşı dərk edilir. Belə dərk etmə mistik deyil, bəşəri, dünyəvi olur. Yüz illərdi etiraf olunur ki, öncə söz gəlib, bəşəriləşib, dünyalaşıb, əqidələşib. Bəşər öncə gələn sözün işığında sözlər yaradıb. Prof.Dr.Cahangir Məmmədlinin "Öncə söz gəldi..." kitabını bu tezislərin işığında oxumuşdum; düşünə-düşünə oxuduğum, oxuya-oxuya düşündüyüm kitabın bədii (və mənəvi!) dəyərləri haqqında özünə layiq fikir söyləməyi özümə mənəvi borc bilirəm, belə bir kitab haqqında nəsə deməyin məsuliyyətini dərk etməklə...**

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin məzunları təhsil alanda da, sonralar da Cahangir müəllimin mühazirənin gedişində də, mühazirədən sonra müəllim-tələbə (ustad-şagird də deyə bilərik) söhbətlərində də tövsiyələrini, incə, çox incə məsləhətlərini, nəsihətlərini ustad kəlamı bilib; Faxralıdan başlayan söz yolumun ilk xeyir-duasını ustadım Əli Səngərli vermişdi, jurnalistika fakültəsindən başlayan və Böyük yola çıxardan söz (jurnalistika) yolumun xeyir-duasını ustad Cahangir Məmmədli.

Yaza bilməyəndə yazmamışam...

Yazmaya bilməyəndə yazmışam...

"Bütün yazılarının əsasını sözə sevgi təşkil edən" (Nəsir Əhmədli) Cahangir Məmmədlinin "Öncə söz gəldi..." kitabı haqqında nəsə demək üçün ustadın öz sözünə söykənirəm; "...nəsrin mənim üçün yazıldığını lap ilk sətirlərdən müəyyən edirəm. Bu ilk sətir həmin əsəri oxumağa çağırırsa, mənim üçündür, çağırmırsa, mən o "əsərdən" artıq bir sətir də oxumuram".

"Öncə söz gəldi..." kitabının ilk sətirləri folklorumuza, xalq deyimlərinə bələdliyin və sevginin, xəlqi ruha, milliliyə sədaqətin ifadəsi kimi oxunur: "Müdrik xalq sözü, adətən, təqdim və təlqim etmək istədiyi ideyanı o qədər aydın ifadə edir ki, artıq izaha, təfərrüata ehtiyac qalmır...". Belə bir məntiqli, düşündürücü cümlə ilə başlayan kitab, təbii ki, Cahangir müəllimin sözünün qüvvəti mənim, mənim timsalımda bütün söz sevərlərin kitabıdı...

Cahangir müəllimin "Bir müəllim tanıyırdım" məqaləsinə bütün




çalarlarıyla düşüncələrimizin söz haləsinə dönən oçerk deyərdim. Tələbələrə xitabən deyilən... Məni də özünüzə yoldaş bilin, bir-birimizdən öyrənəcəyik. Əgər yalnız mən öyrədəsi olsam, vay halımıza..." - bu kəlmələri Mir Cəlal kimi böyük ürək yiyəsi olanlar deyə bilərdi, bu kəlmələri Cahangir Məmmədli kimi incə duyumlular, duyğulular yaşada bilər - yaddaşında da, sözündə də. "Bir müəllim tanıyırdım"ın son-təsəlli cümləsini oxuyanda Mir Cəlalın bir deyimini xatırladım: Tanrıdan bir bayatı ömrü diləyirəm. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin qədirbilən tələbələri adından eyni alğışı 14 kitabın, 300-ə yaxın elmi, 550-dən çox publisistik məqalənin müəllifi olan professor Cahangir Məmmədliyə ünvanlayıram: Tanrı sənə bir bayatı ömrü versin, ustad!

Yerə də, göyə də əyandı ki, sözü sözümüzün başlanğıcı olan Cahangir Məmmədlinin elmi, bədii-publisistik təfəkkürünün işığını tələbələri, tələbəsi olmayan tələbələr təfəkkür işıqları tünlüyündə heysiyyətlə, sevgilərlə ayırd edirlər...

"Öncə söz gəldi..." kitabı mənə iki kitabı da oxutdu: "Beynəlxalq münasibətlər sistemi haqqında fundamental əsər" məqaləsində" "keçmişimizə, yaxın tariximizə dəbdə olan ironiya ilə deyil, soyuqqanlı və obyektiv elmi yanaşma metodundan, Azərbaycanın sovet dövrü siyasi dünyasına obyektiv istiqamətdən nəzər salınan, bu dövrün problemlərinin haradan, necə yarandığı izah edilən,..., üçqütblü beynəlxalq münasibətlər sisteminin xarakteri təhlil olunan,... kimi təqdim edilən "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" dərinliyi, "aforizmlər və onların mahiyyətini açmağa kömək edən fəlsəfi publisistikanın dərinliyi, həyatiliyi, ölçülüb-biçilmiş hər bir sətrin doğruluğu, məna yükünün dərinliyi" kimi təqdim olunan "Əbu Turxanın hikmət dünyası" kitabı.

Yaxşı kitab, dəyərli kitab "Öncə söz gəldi..." kimi olur- oxucunun düşüncələrində gözlənilməz "tərpənişlər" yaradır.

"Əbu Turxanın hikmət dünyası"nı oxuyandan sonra Cahangir müəllimin fəlsəfi duyumuna, sözə sevgisinə və elə bu sevginin nəticəsi olaraq sözü sözdən ayırd etmə, sözün salğarına, məqamına görə müəllifini tanıma məharətinə necə heyrətlənməyəsən? - bu, ustadlıqdı...

"Öncə söz gəldi..." kitabında Cahangir müəllimin iki qeydini bir fikirdə birləşdirməyə cəsarət etdim:

Cahangir Məmmədli Nəsir İmanquliyevdən (Şirməmməd Hüseynovdan, Həsən Şahgəldiyevdən və b; səh.39) öyrəndiklərini (oxucu qarşısında məsuliyyət daşımaq, hər bir leksik vahidin ölçüsünü bilmək, peşə etikasının bütün parametrlərinə əməl etmək, yazılarımızda dəqiq faktlara söykənmək, vicdanlı və qərəzsiz olmaq, problemlərin həlli yollarını göstərmək və s.

Kimi peşəkarlıq xarakteri; s.43) tələbələrinə öyrədə-öyrədə Cahangir müəllim olub....

Sözün üzərliyi sözdü; üzərlik sözləri adilərdən ayırd etmək çətin deyil...

**Söz öz dəyərində, öz məqamında deyiləndə, elə bu səviyyədə də yaşadılanda kəlam olur; Prof.Dr.Cahangir Məmmədlinin "Öncə söz gəldi..." kitabı kəlamlar kitabıdı...**

Ədalət.-2019.-24 sentyabr.-S.8.